Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Rus ədəbiyyatında yeni dövrün yaradıcısı

**N.A.Nekrasovun 195 illik yubileyi münasibəti Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2016**

**Tərtibçi:** **Təranə Hacıyeva**

**Redaktor:** **Zahirə Dadaşova**
Əməkdar mədəniyyət işçisi

**İxtisas redaktoru və buraxılışa məsul:** **Ş.Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

**Rus ədəbiyyatında yeni dövrün yaradıcısı**: metodik vəsait / tərt. ed. T.Hacıyeva; red. və bur. məs. Z.Dadaşova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı. – 2016. – 11 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən

Bu vəsait görkəmli rus şairi, yazıçısı, publisisti, rus ədəbiyyatının klassiki Nikolay Alekseyeviç Nekrasovun 195 illik yubileyi münasibəti ilə yazılmışdır.

Rus ədəbiyyatında A.S.Puşkin və M.V.Lermontovla bir cərgədə dayanmağa layiq hesab edilən (Dostoyevskiyə görə), bütün şeirlərində əsasən xalqın əzablarını, rus kəndlilərinin faciəsini qələmə alan, rus poeziyasına folkloru və xalq dilinin zənginliyini daxil edən N.A.Nekrasov yalnız bədii yaradıcılıqla məşğul olmamış, eyni zamanda naşir olaraq "Sovremennik" və "Oteçestvennıye zapiski" jurnallarının redaktoru kimi də fəaliyyət göstərmişdir. O, xalq danışıq dilini ədəbiyyata gətirməklə, rus poeziyasının diapozonunu xeyli genişləndirmişdir. Rus ədəbiyyatının görkəmli nümayəndəsi olan Nikolay Alekseyeviç Nekrasov öz əsərləri ilə hər zaman xalqın yanında olmuşdur. Onun xüsusilə uşaqlar üçün yazdığı əsərlərinin əsas mənbəyi xalq deyimləri, atalar sözləri, zərbi-məsəllər, nağıllar, ibrətamiz, müdrik hekayələr, nəğmələrdir. Şair liberal və ədəbi dairələrdə populyar olsa da, sağlığında layiq olduğu qiyməti almamışdır. Yalnız XX əsrdə Nekrasovun yaradıcılığının orijinallığı, demokratikliyi, xəlqiliyi layiqincə qiymətləndirilmişdir. Vəsaiti sizə təqdim etməkdə əsas məqsəd görkəmli ədib haqqında məlumatları daha da artırmaq, onun bütün zamanlar üçün aktual əsərlərini yetişməkdə olan nəsil arasında da təbliğ etməkdir. Vəsait iki hissədən ibarətdir. Birinci hissədə yazıçının həyat və yaradıcılığı haqqında məlumat verilir. İkinci hissədə isə uşaq kitabxanasında yazıçıya həsr olunmuş keçiriləcək tədbirlərdən söhbət açılır.

# I Hissə
## Həyat və yaradıcılığı



Görkəmli rus şairi, yazıçısı, publisisti, rus ədəbiyyatının klassiki Nikolay Alekseyeviç Nekrasov 1821-ci il noyabrın 28-də Rusiyanın Podolsk quberniyasında anadan olmuşdur. Gələcək şairin atası müflisləşmiş zadəgan ailəsindən olan hərbiçi, anası isə varlı polyak ailəsinin gözəl təhsil almış qızı idi. Anasını çox sevən şair bu həssas qadının kobud mühitdə çəkdiyi iztirabları bir sıra şeirlərində təsvir etmişdir.

Nekrasovun uşaqlığı böyük ailədə keçmişdir, belə ki, onun 13 bacı-qardaşı olmuşdur. O, 1832-ci ildə gimnaziyaya daxil olur, burada oxuduğu illərdə də ilk şeirlərini yazır. Gələcək şairin atası oğlunu hərbiçi kimi görmək istəyirdi, buna görə də 17 yaşında Nekrasov Sankt-Peterburqa, zadəgan polkuna daxil olmağa gedir. O, burada təhsil almaq arzusuna düşür və Peterburq universitetinə hazırlaşmağa başlayır. Lakin imtahandan keçə bilmir və filologiya fakültəsinin azad dinləyicisi olur. Bundan qəzəblənən atası onu maddi yardımdan məhrum edir və gənc Nekrasov oxumaqla yanaşı daim iş axtarır, çox zaman yaşamağa yer, yeməyə yemək belə tapmır. Bütün bu çətinliklər isə onun xarakterinin daha da möhkəmlənməsinə səbəb olur. Bir müddətdən sonra onun vəziyyəti düzəlir. Belə ki, o, fərdi dərslər verir, qəzet və jurnallara şeirlər, hekayələr, teatr üçün vodevillər yazaraq həyatını təmin edir.

Qeyd olunduğu kimi, ədəbi fəaliyyətə bir sıra qəzetlərin "Ədəbiyyat" əlavələrində kiçik şeirlər, hekayələr, vodevillər və s.

nəşr etdirməklə başlamışdır. Onun yaradıcılığının erkən dövrlərində yazdığı şeirləri və nəsr əsərləri romantik əhval-ruhiyyəsi ilə seçilir və Nekrasovun gələcək realist üsulunun sonrakı inkişafı üçün zəmin rolunu oynayır. 1840-cı ildə gənc şair "Arzular və səslər" adlı ilk şeirlər kitabını nəşr etdirir. Lakin bu kitab tənqidçilər tərəfindən müsbət qarşılanmır, demək olar ki, satılmır və bundan ruhdan düşən Nekrasov kitabın nüsxələrini alaraq məhv edir. Məhz bu səbəbdən də bu kitabdakı əsərlər ədibin əsərlərinin toplusuna daxil edilməyib.

Poetik debütü uğursuz alınan Nikolay Alekseyeviç qələmini nəsr sahəsində sınamağa qərar verir. Onun yaradıcılığının erkən dövrünə aid povest və hekayələrində əsasən özünün şəxsi Peterburq təəssüratları öz əksini tapır. O, tezliklə yumoristik janrlara da müraciət edir.

1940-cı illərin əvvəllərində "Oteçestvennıye zapiski" jurnalının biblioqrafiya şöbəsində fəaliyyətə başlayan Nekrasov Belinskinin dərnəyi ilə əlaqələr qurur. Onun erkən yaradıcılığında "Tixon Trostnikovun həyatı və sərgüzəştləri" romanı xüsusi yer tutur. Naşirlik fəaliyyətini genişləndirən yazıçı, bir sıra almanaxlar nəşr etdirir, 1847-ci ilin əvvəllərində isə İ.Panayevlə birgə əsası hələ Puşkin tərəfindən qoyulan "Sovremennik" jurnalını P.Pletnyovdan icarəyə götürür. Dövrün yaradıcı gəncləri Nekrasovun ətrafına toplaşır. Məhz bu jurnalın səhifələrində İ.Turgenev, İ.Qonçarov, A.Gertsen və başqaları şöhrət tapırlar. Nekrasov yalnız jurnala rəhbərlik etmir, həm də orada əsərləri çap olunan əsas müəlliflərdən biri olur. Burada onun şeirləri, tənqidi yazıları, nəsr əsərləri çap olunur. 1856-cı ildə "Şair və vətəndaş", 1858-ci ildə "Giriş qapısı önündə düşüncələr", 1864-cü ildə "Dəmiryolu" əsərlərini yaradır. 1866-cı ildə ölkədəki siyasi vəziyyətlə əlaqədar olaraq "Sovremennik" jurnalı bağlanır. Bundan sonra Nekrasov

“Oteçestvennıye zapiski” jurnalını icarəyə götürür və onu inqilabi xalqçıların orqanına çevirir.

Nekrasovun bir şair kimi ən məşhur əsərləri “Rusiyada kim yaxşı yaşayır” və “Şaxta, Qırmızı burun” poemalarıdır. Ümumiyyətlə, görkəmli sənətkarın qələmə aldığı əsərlərdən “Rus qadınları”, “Kəndli uşaqları”, “Məhkəmə”, “Baba” və s. poemalarını, “Aktyor”, “Ayı ovu”, “Lomonosovun gəncliyi” və s. pyeslərini qeyd etmək olar. Nekrasov çox sayda şeirin, yumor, satira janrında əsərlərin müəllifidir.

N.A.Nekrasov uşaqlar üçün də çoxlu əsərlər qələmə almışdır. Onun “Rus uşaqlarına həsr olunmuş” bir çox şeirlərinin, “Şaxta, Qırmızı burun”, “Kəndlinin ölümü”, “General Toptıgin”, “Mazay baba və dovşanlar”, “Kəndlinin ölümü” və s. əsərlərinin əsas mənbəyi müdrik xalq hekayələri, zərbi-məsəllər, atalar sözləri, nəğmələrdir.

1875-ci ilin əvvəllərində şair ağır xəstəliyə tutulur. Həkimlər onda bağırsaq xərçəngi aşkar edirlər. Bu xəstəlik onu ömrünün son iki ilində çarpayıya məhkum edir. 1877-ci il dekabrın 27-də şair gözlərini əbədi yumur.

# Görkəmli şəxsiyyətlərin N.A.Nekrasov haqqında söylədikləri fikirlər:

Nekrasov yalnız xalqın halına yanmırdı, həm də özünü kəndli Rusiyası ilə eyniləşdirirdi, onun adından və onun dilində danışırdı.

**V.V.Jdanov**
*Ədəbiyyatşünas*

Nekrasov rus ədəbiyyatında yeni dövrün yaradıcısıdır.

**N.Çernışevski**
*Ffilosof, ədəbi tənqidçi*

Nekrasov böyük ağıla və istedada malikdir.

**V.Belinski**
*Ədəbi tənqidçi*

Nekrasov yalnız sosial və vətəndaşlıq hissləri olan şair deyil, həm də "qəlb şairidir", lirikdir.

**N.Dobrolyubov**
*Ədəbi tənqidçi*

# II Bölmə
# Kitabxanada keçiriləcək yubiley tədbirləri

Görkəmli rus şairi, yazıçı və publisisti Nikolay Alekseyeviç Nekrasovun anadan olmasının 195 illik yubileyi münasibətilə respublikamızın bir çox təhsil müəssisələrində, məktəb, lisey və gimnaziyalarda, kitabxanalarda yubiley tədbirləri keçiriləcəkdir. Kitabxanalarda yubileylə bağlı ənənəvi olaraq görüləcək işlərdən biri yazıçının əsərlərindən ibarət sərginin təşkil olunmasıdır. Sərgidə görkəmli ədibin müxtəlif illərdə həm Azərbaycan, həm də rus dillərində nəşr olunmuş kitablarından istifadə oluna bilər və  müxtəlif başlıqlar altında təşkil oluna bilər. Məsələn: “N.A.Nekrasov – 195”, “Harda qızılgül varsa, orda tikan da var. Bu, həyatın qanunudur”, “Şair olmaya bilərsən, amma vətəndaş olmağa borclusan”, “İnsanın iradəsi və əməyi inanılmaz gözəlliklər yarada bilər” və s.

İndi isə “Nikolay Alekseyeviç Nekrasov – 195” adlı kitab sərgisinin nümunəsini təqdim edirik:

1. “Nikolay Alekseyeviç Nekrasov – 195”;
2. N.A.Nekrasovun portreti;
3. Kitablarının nümayişi;
4. Görkəmli şəxsiyyətlərin N.A.Nekrasov haqqında fikirləri;

Yazıçının özünün sitatlarından, aforizmlərindən də istifadə etmək olar. Onlardan bir neçəsini nümunə kimi təqdim edirik:

- İnsan başqa insana dayaq olmaq üçün yaradılıb, çünki onun özünə dayaq lazımdır.
- Ruhun bədənlə, insanın özü özü ilə mübarizəsi ağırdır.

- Hər bir insanın qəlbində yalnız poeziyanın aça biləcəyi bir qapı var.
- Qısqanclıq – uşaq kimi asanlıqla inanan, vəhşi insan kimi quduzdur.
- Nifrət etməkdən yorulmuş ürək sevməyi öyrənməyəcək.
- İnsanın iradəsi və əməyi inanılmaz gözəlliklər yarada bilər.
- Biz bacımızı, həyat yoldaşımızı və atamızı sevirik. Lakin əzab çəkərkən anamızı xatırlayırıq.

## Kitabların nümayişi























Kitabxanada şairə həsr olunmuş poeziya axşamının keçirilməsi məqsədəuyğundur. Bu tədbiri keçirməyin əsas məqsədi: 1)

şagirdləri şairin həyat və yaradıcılığı ilə tanış etmək; 2) şagirdlərdə yaddaşı, diqqəti, təxəyyülü inkişaf etdirmək və s.

Bu tədbirin keçirilməsi üçün "Qəlbim poeziya ilə döyünür" adlı kitab sərgisi, oxucuların çəkdikləri rəsmlərdən ibarət "N.A.Nekrasovun şeirlərinin qəhrəmanlarını çəkirik" adlı sərgi, Nekrasovun şeirlərinə bəstələnmiş romanslardan ibarət diskdən istifadə etmək olar.

Qonaqlar: şair və yazıçılar, müəllimlər, şagirdlər, valideynlər zala daxil olduqdan sonra tədbir açıq elan olunur.

**I aparıcı:** Xoş gördük sizləri. Biz sizi "Nikolay Alekseyeviç Nekrasovun - rus həyatının ensiklopediyasının yaradıcılığı" adlı poeziya axşamında salamladığımız üçün çox şadıq.

**II aparıcı:** Rusiyanın görkəmli şairi Nikolay Alekseyeviç Nekrasov Ukraynada anadan olmuşdur. Onun uşaqlığı və gəncliyi Yaroslavl quberniyasında, atasının malikanəsində keçmişdir. Uşaqlıq dostları əsasən təhkimli kəndlilərin uşaqları olmuşdur. Lakin atası onlarla dostluq etməyi balaca Nikolaya qəti qadağan etmişdi. Buna baxmayaraq o, bu qadağanı pozur, evdən qaçaraq uşaqlarla oynayırdı. Gələcək şair doqquz yaşında Yaroslavl gimnaziyasında oxumağa başlayır, on altı yaşında isə Peterburqa, təhsilini davam etdirməyə gedir. O, atasının istədiyi kimi hərbi məktəbdə oxumaqdan imtina edir. Atasının maddi yardımından məhrum olan gənc Nikolay bir çox məhrumiyyətlərlə üzləşir, hətta günlərlə ac, evsiz-eşiksiz qalmalı olur. Lakin bütün bu çətinliklər onun iradəsini sındırmır.

1838-ci ildə gənc şair ilk şeirlərini nəşr etdirir. 1847-ci ildə isə onun şeirləri "Sovremennik" jurnalında çap olunmağa başlayır. Bu jurnalda onun redaktorluq istedadı da tam şəkildə açılır. İşlədiyi müddətdə Nekrasov həmin dövrün əksər qabaqcıl şair və

yazıçılarını, Turgenev, Qonçarov, Gertsen, Belinski və digərlərini bu jurnalın ətrafında toplaya bilir.

**I aparıcı:** Şair kənd uşaqlarını çox sevirdi. Onlar da Nikolay Alekseyeviçə eyni məhəbbətlə yanaşırdılar. O istəyirdi ki, ətraf kəndlərin uşaqları məktəbə getsinlər, təhsil alsınlar. Buna görə o, hətta 1872-ci ildə öz vəsaiti hesabına məktəb açmış, dərsliklər almış, müəllimlər təyin etmişdi.

Nekrasov yaradıcılığının böyük hissəsini uşaqlara həsr etmişdir. O, kənd uşaqlarının cəsurluğu, əməksevərliyi, azadlığı və xeyirxahlığı ilə fəxr edir və onlarda vətənin gələcəyini görürdü. Buna görə onun şeirləri bu gün də maraqlıdır.

*(Daha sonra tədbir şairin yaradıcılığındakı əsas mövzular haqqında məruzə ilə davam edir. Məruzəni tanınmış yazıçı və şairlərdən və ya kitabxananın işçilərindən biri edə bilər.)*

**Məruzəçi:**

N.A.Nekrasovu kəndli şairi, Peterburq şairi, inqilabi demokratiyanın şairi adlandırırdılar. Nekrasov poeziyasının əsas tematikası – rus kəndlilərinin və şəhər yoxsullarının həyatıdır. Bu baxımdan onu Dostoyevskinin sələfi də adlandırmaq olar. Bu şeirlərdə çox vaxt qəmli, ümidsiz intonasiyalar səslənir.

Nekrasovun əsərlərində digər bir mövzu – müasiri olduğu insan, qabaqcıl ictimai xadim və ya hətta qorxaq meşşan mövzusudur. Bu şeirlərə inqilabi pafos xasdır.

Bundan başqa, Nekrasovun yaradıcılığı üçün poeziya, şair və məhəbbət mövzuları mühüm yer tutur.

Nekrasovun yaradıcılığında Vətən mövzusu kənd, kəndli xarakteri qazanmışdır. Onun əsərlərində oxucu qarşısında rus kəndinin, rus kəndlisinin, rus qadınının taleyi dayanır: "Unudulmuş kənd", "Volqada", "Yolda", "Orina, əsgər anası".

Ümumiyyətlə onun bir çox əsərləri rus xalqının taleyi, Rusiyanın inkişaf yolları haqqında dərin düşüncələrlə zəngindir.

N.A.Nekrasov novator-şair, demokrat şairdir. Nekrasovun poeziyasında yoxsulluğun, aclığın, soyuğun bütün dəhşətləri əks olunmuşdur. Biz Nekrasovun əsərlərində tez-tez parodiya intonasiyaları ilə də qarşılaşırıq. Nekrasovun avtobioqrafik və məhəbbət şeirlərinin lirik qəhrəmanı – rus ziyalısıdır. Ziyalı, ictimai xadim obrazına biz şairin "Belinskinin xatirəsinə", "Dobrolyubovun xatirəsinə" şeirlərində, "Rusiyada kim yaxşı yaşayır" poemasında da rast gəlirik.

Şairin bədii metodu–realizmdir. Lakin onun əsərlərində bəzən fantastika elementlərinə də rast gəlinir.

Tədbirin sonunda şairin şeirlərinə yazılmış musiqilərə qulaq asılır.

Kitabxanada keçirilən tədbirlərdən biri də sual-cavab gecəsidir. Bu tədbiri kitabxanaçı məktəb şagirdləri ilə keçirə bilər.

**Kitabxanaçı: -** N.A.Nekrasov ilk şeirlərini kimə həsr etmişdir?

**Oxucu: -** N.A.Nekrasov öz ilk şeirlərini işıqlı xatirəsini bütün ömrü boyu qəlbində daşıdığı anası Yelena Andreyevnaya həsr etmişdir.

**Kitabxanaçı:** - Şair hansı irihəcmli əsərlərində anasını mənəvi ucalıq kimi təsvir edir?

**Oxucu:** - "Bir saatlıq cəngavər", "Ana", "Vətən" əsərlərində

**Kitabxanaçı:** - Nekrasov özünün ilk şeirlər toplusunu necə adlandırmışdı?

**Oxucu:** - "Arzular və səslər"

**Kitabxanaçı:** - Şairin ilk əsərlərinin sərt tənqidçisi kim olmuşdur?

**Oxucu:** - V.Q.Belinski

**Kitabxanaçı:** - N.A.Nekrasov hansı jurnalların naşiri olub?

**Oxucu:** - “Sovremennik” və “Oteçestvennıye zapiski”.

**Kitabxanaçı:** - Nekrasov hansı şeirində uşaqların ağır əməyindən söz açır?

**Oxucu:** - “Uşaqların ağlaması”.

**Kitabxanaçı:** - Şair uşaqlara daha hansı şeirlərini həsr etmişdir?

**Oxucu:** “Mazay baba və dovşanlar”, “Yakov baba”, “Arılar”, “General Toptıgin”, “Bülbüllər”

Kitabxanada keçiriləcək daha bir tədbir kitab müzakirəsidir. Məlum olduğu kimi, N.A.Nekrasovun yaradıcılığında uşaqlara xüsusi yer verilir. Bu əsərlərdən birini, “Şaxta, Qırmızı burun” əsərini müzakirə etmək məqsədəuyğundur. Kitab müzakirəsinə müəllimlər, yaradıcı insanlar, şagirdlər iştirak edə bilər. Kitab müzakirəsi keçiriləcək zalda yazıçının portreti, kitablarından ibarət sərgi təşkil olunmalı, əsərlərinə çəkilmiş rəsmlərin reproduksiyalarının surəti çıxarılaraq nümayiş olunur. Həmçinin yazıçının söylədiyi fikirlər, aforizmlər də slayd şəklində nümayiş olunsa daha yaxşı olar. Zalda iştirakçılar öz yerlərini tutduqdan sonra əvvəlcə kitabxanaçı əsər haqqında qısa məlumat verir:

**Kitabxanaçı:** Rus ədəbiyyatının görkəmli nümayəndəsi N.A.Nekrasov “Şaxta, Qırmızı burun” əsərini 1863-cü ildə qələmə alıb. O, bu əsəri bacısı Annaya ithaf edib. Nekrasovun yaradıcılığından qırmızı xətlə keçən iki mövzu – rus kəndi və rus qadını bu əsərdə də əsasdır. Sadə xalqın, kəndlilərin ağır həyatı, sevinc və kədərləri, zəhmət dolu həyatları, məşəqqətləri Nekrasov yaradıcılığında həmişə ön planda tutulub. “Şaxta, Qırmızı burun” poeması bütövlükdə rus qadınına həsr olunub. Şair həyatın bütün çətinliklərinə, ağır işə, məişət qayğılarına baxmayaraq, xaricən gözəl qadın, nəvazişli həyat yoldaşı, sevgi dolu, şəfqətli ana, zəhmətsevər və yüksək mənəvi dəyərlərə malik insan olaraq rus

qadınlarının mənəvi gücünü və dözümünü vəsf edir. Şair burada qadını təbiətlə vəhdətdə görür və təsvir edir.

Nekrasov əsərin qəhrəmanı olan Daryanı da məhz belə təsvir edir. O, tipik rus, slavyan gözəlidir. Daryanın zahiri görünüşü rus gözəlinin bütün məziyyətlərini özündə birləşdirir. Onun taleyi isə rus qadınlarının ümumi taleyindən fərqlənmir. Daryanın həyat yoldaşı Prokl onu özünəməxsus, sərt məhəbbətlə sevir. Darya onun həm həyat yoldaşı, həm bütün işlərdə köməkçisidir, onlar birlikdə öz övladlarını böyüdürlər. Lain Prokl xəstələnir və tezliklə vəfat edir. Ərini itirən Darya onların ikisinin də əvəzinə işləməli olur. Ağır katorqa əməyi, soyuq və aclıq nəticəsində Darya dəhşətli ölümlə həyata vida edir. O, meşədə donaraq ölür. Ən faciəvi olan isə odur ki, rus qadınının bu qəhrəmanlıqla dolu həyatı və ölümü heç kim tərəfindən qiymətləndirilmir.

Daha sonra müzakirədə tədbir iştirakçıları əsər haqqında öz düşüncələrini söyləyə bilərlər.

## İnternetdən istifadə olunmuş saytlar:

1. www .google.ru
2. https://ru.wikipedia.org/

## Ədəbiyyat siyahısı:

1. Əlamətdar və tarixi günlər təqvimi- 2016-cı il
2. Nekrasov N.A. Rus qadınları. – Bakı: Yazıçı,1983. –124 s.
3. Некрасов Н.А. Дедушка Мазай и зайцы. – М.: Детская литература, 1989. – 16 с.
4. Некрасов Н.А. Зеленный шум. – М.: Детская литература, 1969. – 31 с.
5. Некрасов Н.А. Полное собрание сочинений и писем. – М.: Гослитиздат, 1949. – 719 с.

# Rus ədəbiyyatında yeni dövrün yaradıcısı

(metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** ***Təranə Hacıyeva***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:4
Çapa imzalanmışdır: 04.03.2016
Tirajı:100
Pulsuz.